| Yevqeniy Mixayloviç Kiryaşov<br><br>1952-2021 |  |
| --- | --- |

Yevqeniy Mixayloviç Kiryaşov 2 yanvar 1952-ci ildə Bakı şəhərində anadan olub. 1970-1975-ci illərdə Azərbaycan Politexnik İnstitutunda təhsil alıb. 1975-1978-ci illərdə Bakı şəhəri Memarlıq planlaşdırma Baş Idarəsində memar, 1978-ci ildə Bakı şəhəri İcra Hakimiyyəti Baş memarın yaradıcılıq Emalatxanasının rəhbəri çalışıb. 1985-1988 «Xəzər dənizi Gəmi Təmiri» birliyinin Baş memarı, 1988-1992 Bakı şəhər İcra Hakimiyyəti Baş memarının Birinci müavini, 1994-2001 Xoldinq "İmproteks" Tikinti şirkətinin prezidentinin müavini vəzifəsində çalışıb. 2002-2021 müstəqil memarlıq fəaliyyəti ilə məşqul olmuşdur. 20-yə yaxın layihə müəllifidir.

Ən yaxşı tələbə diplom işlərinə həsr olunmuş Binici Ümumittifaq diplom işlərinin müsabiqəsində birinci dərəcəli diplom və qızıl medala layiq görülmüşdür "Azərbaycanda qış idman növlərinin inkişafı" (1975),Ümumittifaq müsabiqəsində ilin ən yaxşı layihəsi "Abşeron yarımadasının Bilgəh qəsəbəsində kurort zonasının layihəisi"(1983) (həmmüəllif) birinci dərəcəli diploma layiq görülmüşdür.

"Ustad Memar" sertifikatı (2013), "Azərbaycanın Əməkdar memarı" (2016) adı ilə təltif olunub. Azərbaycan Respublikası Memarlar İttifaqı tərəfindən "Çoxillik yaradıcılıq fəaliyyətinə görə Fəxri Fərmanla" (2017) təltif olunub.

2021-ci ildə rəhmətə getmişdir.